**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 60 (2241) 10 iyun 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Laçınım mənim

**Bu gün Laçını düşünmək, Laçına üz tutmaq bir il öncəki durumdan xeyli fərqlənir. Ona görə ki, Azərbaycan ordusu 2020-ci ilin dekabr ayının 1-də Laçın rayonunun erməni işğalından azad olunmasını təmin etdi. 10 noyabr 2020-ci il razılaşmasına əsasən Erməni Silahlı Qüvvələri Laçın rayonunu tərk etdi. Amma...**

Təbii ki, həmin razılaşmaya uyğun olaraq Laçın dəhlizi bu rayonun Ermənistanla ilişkili olan müəyyən ərazilərində sülhməramlıların olmasını, Laçının bütünlüklə öz nəzarətində keçməsini ləngidir. Bu da laçınlıların və bütövlükdə Azərbaycan xalqının müəyyən haqlı narazılığının qalmasına səbəb olur. Təbii ki, ötən illərlə müqayisədə bu gün dövlət sərhəddimizin bütünlüklə ordumuz tərəfindən qorunması çox böyük qələbədir. 44 günlük zəfər müharibəmizlə biz bunu təmin etmişik. Ali Baş Komandanımız özünün dəmir yumruğu və sərt iradəsi ilə düşmənə və bütövlükdə dünyaya nəyə qadir olduğumuzu göstərdi. Deməli, bu da işğalın sonu, yeni dövrün, yeni işğal olunmuş ərazilərimizin bərpası və inkişafı dövrünün başlanğıcıdır. Bax, bu gün Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq işğaldan azad edilmiş ərazilərimiz üçün də yeni həyatın başlanğıcına məhz Azərbaycan Prezidentinin rəhbərliyi altında start verilib. Necə deyərlər, bütün dövlət qurumları, eləcə də qeyri-hökumət təşkilatları, sahibkarlar, iş adamları, hətta Azərbaycanla iş birliyində olan xarici ölkələrin, xüsusilə qardaş Türkiyənin kənd təsərrüfatı, tikinti sektorlarında çalışan nümayəndələri artıq Laçında, Şuşada, Zəngilanda, Qubadlıda, Ağdamda, Füzulidə, Kəlbəcərdə və digər ərazilərimizdə geniş fəaliyyətə başlayıblar.

Həmin görülən işlərin ünvanlarından biri də Laçın rayonudur. Biz bu rayonu Azərbaycanın kənd təsərrüfatı bölgəsi kimi tanısaq da, hələ Qarabağın işğalına qədər olan zaman kəsiyində Laçın həm də Sultan bəyin böyük qəhrəmanlığının ünvanı kimi tariximizdə, yaddaşımızda yazılmışdı. Hələ Sovetlər dövründən öncə, yeni 1918-ci ildə erməni daşnaklarının Qarabağda törətdikləri cinayətlərin ən sərt və kəskin cavabını məhz Sultan bəy Andraniki öz qoşunu ilə birlikdə mühasirəyə alıb, böyük itkilərə məruz qoyması ilə verdi. Tarixdən məlumdur ki, həmin döyüşdə Andranik çox kiçik bir qrupla canını qaçaraq qurtara bilmişdi. Təəssüf ki, belə bir qəhrəmanlığın yenidən gerçəkləşməsinə Sovetlər Birliyinin rəhbərliyi "erməni sevgisi" ilə erməni havadarlarının fəaliyyəti imkan vermədi. Amma Laçın işğal olunsa da, bu bölgənin qəhrəman oğullarının şücaəti unudulmadı. Onların Qarabağ uğrunda, Laçın uğrunda göstərdikləri qəhrəmanlıqlar şərəf tariximizə xüsusi qeyd olundu.

Bu gün hər birimizin böyük sevgi və bir az da nisgillə dinlədiyimiz mərhum və unudulmaz müğənnimiz Məhəbbət Kazımovun oxuduğu "Laçınım mənim" mahnısı artıq öz kədər notlarını qələbə, sevinc notları ilə əvəzləyib. Ona görə də Laçınla bağlı görüləcək işlərin coğrafiyasını göz önünə gətirəndə öncə Laçının maddi-mədəni sərvətləri yada düşür. Hər qarış torpağı bərəkətli olan Laçında təbii otlaqların, meşə zolaqlarının olması bu rayonun heyvandarlıq üçün önəmli olduğunu diqqətə çatdırır. Elə tarixin özü də göstərir ki, istər sovetlərdən öncə, istərsə də Sovetlər dönəmində Laçın rayonu ərazisində heyvandarlığın inkişafına xüsusi diqqət yetirib. Hətta Laçın dağları Azərbaycanı Aran rayonları heyvandarları üçün də yaylaq sayılıbdı. Bu mənada artıq öz sahiblərini gözləyən Laçında heyvandarlığın daha geniş şəkildə inkişaf etdirilməsinə, heyvandarlıq məhsullarının istehsal səviyyəsinin yüksəlməsinə ciddi yanaşılmalıdı. Bu ölkəmizin ərzaq təminatında öz sözünü deyə biləcək bir sahədir.



Laçın rayonu ərazisindəki təbii və mineral suların da həm istehsal edilməsi, onların qablaşdırılıb Azərbaycan əhalisinə çatdırılması bu işlə məşğul olacaq dövlət qurumlarına da, sahibkarlara da böyük fayda verə bilər. Təbii ki, bu həm də yeni iş yerlərinin açılması istiqamətində uğurlu addımlardan biri olar. Paralel olaraq Laçın rayonu ərazisindəki təbii çayların sularından da yararlanmaq həmin ərazidəki göllərdə balıq yetişdirmək də mümkündür. Zənnimcə, Laçın ərazisində quşçuluğun inkişafına da, xüsusilə çaylara yaxın ərazilərdə qaz, ördək saxlamaq onun məhsullarının istehsalı ilə məşğul olmaq sahibkarlarımız üçün əlverişli sahələrdən biri kimi diqqətdə saxlanılmalıdır. Bu sahəyə dövlət dəstəyi verilərsə, nəticəsi də uğurlu alınar. Ona görə ki, həm bölgənin özündə yem tədarükü imkanları var, həm də Laçında heyvandarlığın, quşçuluğun inkişaf etməsi üçün yetərincə təcrübəsi olan insanlar yaşayır.

Regionların İnkişafına uyğun olaraq Laçın rayonunda istirahət zonalarının salınması və turistlərin axınını təşkil etmək həm bölgədə mədəni iqtisadi həyatın inkişafını, həm də Laçının dünya çapında tanınmasına yol açar. Buraya səfər edəcək turistlər həm gözəl mənzərəni, həm tarixi abidələri, həm də ekoloji gözəlliyin canlı şahidinə çevrilə bilərlər. Bunun üçün aidiyyatı qurumların planlı şəkildə Laçında müvafiq yerlərin ayrılması, müasir otellərin tikintisinin aparılması nəqliyyat vasitələrinin hərəkəti üçün yol infrastrukturunun yaradılması ən əsas vəzifələrdən biri olmalıdır. Əgər bu addımlar atılarsa, Şuşaya gələn turistlərin Laçına da üz tutması reallığa çevrilə bilər. Görüləcək işlər sırasında Laçın rayonunda səhiyyə, mədəniyyət və digər sosial obyektləri günün tələbləri səviyyəsində xidmət sahələrinə çevrilməsi həm rayon sakinləri üçün, həm də buraya səfər edəcək hər bir şəxs üçün çox zəruridir. Belə ki, bu günün insanı artıq ən müasir texnologiyalardan yararlanmağı, ən son tibbi nailiyyətlərdən yararlanmağı özünün halal haqqı sayır. Deməli, bu təminatlar reallaşarsa, onda Laçının təkcə mənim, sənin yox, həm də hər birimizin böyük sevgi və maraqla üz tutacağımız bir guşəyə çevriləcəkdir.

**Bütün bunlarla bahəm Azərbaycan Prezidentinin vurğuladığı kimi Laçında yaradılacaq infrastrukturu, tikiləcək hava limanı və digər məsələlər zaman-zaman öz həllini tapdıqca Laçının da qəhrəmanlıq dastanına tikinti-quruculuq dastanları əlavə olunacaq. Hər kəs Laçının sabahını böyük istək və sevgi ilə gözləyir. Düşünürəm ki, bu rayonun yeni dönəmi ölkəmizin inkişaf tarixində ayrıca bir səhifə təşkil edəcəkdir. Onda hər birimiz "Laçınım mənim" deyəndə təkcə gözəl müğənnimiz Məhəbbət Kazımovun səsini, nəfəsini yox, həm də günümüzün Laçınını özünün hesab edəcəkdir.**

**Əbülfət MƏDƏTOĞLU**



AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ